**Standart bank hesab nömrəsinin (IBAN) tətbiqi və istifadəsi ilə əlaqədar tez-tez verilən suallar**

***1. IBAN nədir?***

Bankçılıq Standartları üzrə Avropa Komitəsi (ECBS) və Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat (İSO) tərəfindən müəyyən edilmiş İSO 13616 beynəlxalq standartına uyğun olaraq yaradılan və banklar, poçt-maliyyə xidmətləri göstərən poçt rabitəsi milli operatoru və Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi (maliyyə institutları) tərəfindən müştərilərə təqdim edilən standart bank hesab nömrəsidir.

2. ***IBAN-ın tətbiq edilməsində məqsəd nədir?***

Elektron ödəniş məkanında bank müştərilərinin identifikasiya edilməsini təkmilləşdirmək, ödənişlərin emalı zamanı avtomatlaşdırılma səviyyəsini yüksəltmək, bank hesablarının strukturundakı pərakəndəliyi aradan qaldırmaq və əməliyyat risklərini minimallaşdırmaqdır.

3. ***İBAN layihəsinə nə vaxtdan start verilmişdir?***

Mərkəzi Bankın, Vergilər Nazirliyinin, Maliyyə Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Banklar Assosiasiyasının və kommersiya banklarının (Beynəlxalq Bank, Kapital Bank, Standart Bank, Unibank, Bank Respublika və Muğanbank) nümayəndələrindən ibarət 17.06.2010-cu il tarixində yaradılmış İşçi Qrupu (İQ) tərəfindən İBAN layihəsinin tətbiqinə başlanılmışdır.

## *2. Azərbaycanda IBAN-ın strukturu necədir?*

Azərbaycan Respublikasında IBAN-ın strukturu aşağıdakı formadadır:




## *4. IBAN hansı hesablara tətbiq edilir?*

IBAN ölkədaxili və ölkədənkənar banklararası hesablaşmalarda iştirak edən bütün bank hesablarına tətbiq edilməlidir. Maliyyə institutları daxili siyasətlərindən asılı olaraq digər hesablarına da IBAN tətbiq edə bilərlər.

## *5. IBAN barədə haradan ətraflı məlumat əldə etmək olar?*

Mərkəzi Bankın internet saytının "Ödəniş sistemləri" bölməsində "IBAN" başlığı altında bu barədə ətraflı materiallar, o cümlədən "Standart bank hesab nömrəsi (IBAN) üzrə Metodoloji Rəhbərlik" yerləşdirilmişdir.

***6. Azərbaycanda IBAN-ın tətbiqinə nə zaman başlanmışdır?***

Mərkəzi Bankın kommersiya banklarına açdığı müxbir və submüxbir hesablar 12.03.2012-ci il tarixindən etibarən IBAN strukturuna çevrilmiş və real rejimdə istifadə edilir. Müştəri hesabları isə 07.01.2013-cü il tarixindən IBAN strukturuna keçirilmiş və real rejimdə istifadəsinə başlanılmışdır.